# "Yad et məni, şairanə yad et..."

Mayın 18-də AMEA-nın Nizami adına Ədəbiyyat İnstitutu XX əsr Azərbaycan ədəbiyyatının klassiki, görkəmli pedaqoq, ictimai xadim Abdulla Şaiqin anadan olmasının 130 illiyinə həsr edilən elmi sessiya keçirdi.

Elmi sessiyada institutun direktoru, akademik Bəkir Nəbiyev görkəmli sənətkarın çoxşaxəli yaradıcılığı, bənzərsiz şəxsiyyəti haqqında ətraflı danışdı. Vurğuladı ki, Abdulla Şaiq Azərbaycan yazıçıları içərisində yeganə şəxsiyyət olmuşdur ki, hələ sağlığında xatirəsi əbədiləşdirilmiş, Abdulla Şaiq adına Nümunə məktəbi fəaliyyətə başlamışdır. "Təkcə bu faktın özü Abdulla Şaiqin böyük ziyalı obrazını bütöv şəkildə göz önünə gətirir. Abdulla Şaiq yaradıcılığı sənətsevərlərə, ümumilikdə isə cəmiyyətə həm bədii zövq aşılayır, həm də cəmiyyətin, insanların gözünü həyata açırdı. O, canlı bir körpü idi. Bu körpü dövrünün ziyalılarını, tələbələri, görkəmli şəxsiyyətləri birləşdirirdi. Abdulla Şaiq bir tərəfdən görkəmli şəxsiyyətlər haqqında xatirələrini yazır, bir tərəfdən də klassik irsə yeni münasibət aşılayırdı. Xalqa, onun nəcib duyğularının irəliləyişinə, elminə və sənətinə ləyaqətlə xidmət edən Şaiq əfəndi sovet rejiminin təsəvvüredilməz ağrı-acılarını da yaşamışdı. Yazıçının oğlu, görkəmli ədəbiyyatşünas alim Kamal Talıbzadə danışardı ki, atam uzun illər zəruri əşyalarını bir yerə toplayıb hazır saxlayırdı ki, gözlənilmədən onu həbs edib qara maşında gedər-gəlməzə apara bilərlər. Heç vaxt unutmaram, bir dəfə söhbət əsnasında mən Şaiq əfəndidən həmin illər haqqında soruşdum. Gərək ki, 1957-ci il idi. Şaiq əfəndi tələsik mövzunu dəyişdi. Kamal müəllim araya söz salıb mənə dedi ki, onu qınama, o illərin xofu hələ də atamın canında yaşayır. Aradan xeyli vaxt keçmişdi, ancaq Şaiq əfəndi yenə də həyəcan içində idi. Bu, səbəbsiz deyildi. Onun qardaşı Yusif Talıbzadə Orta Asiyada azadlıq mücahidlərilə bir sırada imperiyaya qarşı vuruşub şəhid olmuşdu. Bu faktı heç zaman Abdulla Şaiqə bağışlamazdılar. Hətta oğlu Kamal Talıbzadə vaxtilə sənədlərini Beynəlxalq Diplomatiya İnstitutuna verəndə belə bu fakt nəzərə alınaraq onun ərizəsi qəbul edilməmişdi.

Abdulla Şaiq milli sənətkar, müstəqillik mücahidi idi. O, uşaq ədəbiyyatımızın ən nadir nümunələrini yaratmış və təhsilimizin milli zəmində inkişafının əsasını qoyanlardan biri olmuşdu..."

Elmi sessiyada filologiya elmləri doktoru, professor Alxan Bayramoğlu "Abdulla Şaiq XX əsr Azərbaycan ədəbi-ictimai fikrinin nadir hadisəsi kimi" mövzusunda ətraflı məruzə ilə çıxış etdi. Məruzədə deyilir: "Abdulla Şaiq Talıbzadə Azərbaycan ictimai ədəbi və mədəni fikir tarixində görkəmli romantik şair, nasir, dramaturq, ədəbiyyatşünas alim, tərcüməçi və müəllim kimi özgün yer tutur. Yaradıcılığının belə çoxşaxə-

*(Ardı 2-ci səh.)*

*(Əvvəli 1-ci səh.)*

# "Yad et məni, şairanə yad et..."

liliyi onun əsərlərinin məzmun və ideya-bədii keyfiyyətlərinə mənfi təsir etməmiş, əksinə, onların biri digərini tamamlayaraq, bütövlükdə A.Şaiq yaradıcılığının yüksək sənət nümunəsi kimi ümumxalq məhəbbəti qazanıb əbədiyaşarlığına səbəb olmuşdur

Uşaqlığından Tiflisin və Borçalı dağlarının ecazkar təbiəti qoynunda və Azərbaycan folklorunun sirli-sehrli əfsanə və nağıllar aləmində saf uşaq xəyallarının nəhayətsiz qanadlarında vətəninə və xalqına, onun təbii və mənəvi sərvətlərinə sonsuz məhəbbət duyğusu ilə bağlanan Abdulla Şaiq Xorasanda və Bakıda xalqın ağır, dözülməz güzəranını gördükcə qəlbi vətəndaşlıq kədəri ilə sıxılırdı. Bu sıxıntı və əzabların nəticəsi "Vətən" şerindəki misralarda belə ifadə olunurdu:

*Ey çeşmimin önündə mücəssəm vətən, vətən!*
*Qəlbim kimi ələmlərə həmdəm vətən, vətən!*

Şair vətənin gül ləçəklərinə qonan şəbnəmi də dərddən axan göz yaşlarına bənzədir. Dücar olduğu faciənin təsiri ilə sanki donub qalan vətənin bu ağlar vəziyyəti vətəndaş şairin canını üzüb, cismini əridərək zəiflədir. Vətəni canı kimi sevən şairin ilham pərisi "gözəl mələk" də qüssə-qəm içindədir:

*Gördükcə dərdini əriyir cismi-natəvan.*
*Ney tək sızıldayır dili-pürqəm, vətən, vətən!*
*Qarşımda dərd, matəmə batmış gözəl mələk*
*Səslər həzin səda ilə hərdəm: vətən, vətən!*

Abdulla Şaiqin ədəbiyyata gəlişi romantik bir məzmun və üslubda baş verir. Özü də onun şeir rübabı daim ülviyyət, hürriyyət, mübarizə, işıqlı, xoşbəxt gələcək nəğmələri üstə köklənir. Bu rübabın çalıb-oxuduğu nəğmələr vətən övladını ta çocuqluqdan başlayaraq tərəqqiyə, fəaliyyətə, layiqli vətəndaş olmağa səsləyir və bu ruhda da tərbiyələndirməyə çalışır. A.Şaiq zamanın tələbinə və maarifçilik hərəkatına uyğun olaraq Azərbaycan müəllimlərinin I və II qurultaylarında Ana dili və əlifba dərsliklərinə (və dərslərinə) qoyulan tələblərə qurultaylardan az sonra bir-birinin ardınca çap etdirdiyi dərsliklərdən uzun illər Azərbaycan gəncliyinin bir neçə nəsli istifadə etmiş, faydalanmışdır. Bu işi A.Şaiq təkcə müəllim və pedaqoq, metodist kimi yox, həm də klassik uşaq ədəbiyyatımızın poeziya, nəsr və dram janrında bir çox yaddaqalan nümunələrini yaratmaqda görmüşdür.

A.Şaiq uşaq psixologiyasına, onun maraq dairəsi və anlaq səviyyəsinə bələd olan incə zövqlü, həssas duyğulu sənətkar idi. Odur ki, uşaqların nağıl və əfsanə qanadlı fantaziyası, gördükləri, müşahidələri qarşısında duyduğu heyrət və təəccüb onun şeir və hekayələrində romantik bir vüsətlə əks etdirilmişdir. Bu əsərlərdə romantizmə xas zahiri sadəlövhlük, ilkinlikdən doğan saflıq, heyrət və varlığı dərk etmək cəhdləri sanki uşaq dünyasının sirli-sehrli aləmindən gəlir. Uşağın ilkin olaraq ətraf aləmə, təbiətə, canlılara göstərdiyi diqqət və maraq şairin "Xoruz", "Keçi", "Uşaq və dovşan", "Yetim cücə" və s. şeirlərində öz əksini həyatdan doğan romantik heyrətin poetik ifadəsi şəklində tapmışdır.

Ümumən Abdulla Şaiq yaradıcılığında səmimiyyət, məhəbbət və ədalətlə süslənmiş işıqlı bir inam, qanadlı romantikadan və soydaşlarının tarixi-mənəvi potensial qüdrətindən irəli gələn ümid və əzəmət, nikbinlik hakimdir. Onun ilham pərisi yaşadığı əsrin qeyri-müəyyən gedişlərini anlamağa çətinlik çəkərkən dərin bir vətəndaş narahatlığı ilə "İyirminci əsrə xitab", "Hürriyyət pərisinə" müraciət edərək öz suallarına aydın bir cavab almağa çalışırdı. "İyirminci əsrə xitab"da şair-vətəndaş narahatlığının doğurduğu sualların poetik ifadəsi , "Şikayətlərim" şerində üzə çıxan vətəndaş duyğuları onun həm də millətin taleyi üçün narahatlıqlarını və təəssübkeşliyini ifadə edir:

*Yenə hər yanda hökm edir zülmət!*
*Yenə söndü o nazənin ülkər!*
*Gecə-gündüz tapındığım dilbər,*
*Yenə qaldıq vüsalına həsrət.*

Bütövlükdə türk dünyasının və Azərbaycanın düşdüyü böhranlı vəziyyətindən dərin təlaş keçirən Abdulla Şaiq "Vətənin yanıq səsi" adlı poemasında vətənin dili ilə ulu babalarımızın şöhrətli keçmişinə nəzər salır. Qafqazın - bu ulu vətənimizin o şən, xoşbəxt günlərini, bizim ulu nəslimizi sevinclə öz qoynunda bəslədiyini və igid, nəcib övladlarının timsalında özünə həm də etibarlı mühafizlər tapıb daim əmniyyətdə olacağı qənaəti ilə rahatlanır.

Elmi ədəbiyyatda A.Şaiq romantik bir ədib kimi dərk və qəbul edilir. Bununla yanaşı onun yaradıcılığında sentimentalizmin də kifayət qədər çəkiyə malik olduğu son vaxtlar daha sistemli şəkildə təsdiq edilməkdədir. Doğrudan da, ədibin istər poeziyasında, istərsə də nəsr və dramaturgiyasında romantizmlə sentimentalizm özünü paralel şəkildə göstərir. Belə əsərlərdən biri "İki müztərib, yaxud əzab və vicdan" romanıdır. Bu roman A.Şaiqin ilk nəsr əsəri olub, məktub şəklində yazılmışdır. "İki müztərib, yaxud əzab və vicdan" bəzi cəhətlərinə görə İ.Hötenin "Gənc Verterin iztirabları" əsərini xatırladır. Burada hadisələr Sitarə ilə Cavad arasında baş verir. Əhvalatı iki nəfərin məktublarından və baxışlarından öyrənirik.

"Abdulla Şaiqin ədəbi-bədii düşüncələri" mövzusunda məruzə ilə çıxış edən filologiya üzrə fəlsəfə doktoru Arzu Hacıyeva da görkəmli ədibin yaradıcılıq məziyyətlərini önə çəkdi. Bu il 130 illiyini qeyd etdiyimiz Azərbaycan romantik ədəbiyyatının görkəmli simalarından biri Abdulla Şaiq Talıbzadə Azərbaycan ədəbi-estetik fikir tarixində özünəməxsus yeri, xidmətləri olan böyük sənətkarlardan biridir. O, ömrünün 50 ilini vətəninin, millətinin tərəqqisinə, maariflənməsinə həsr etmişdir. Poeziya, nəsr, dramaturgiya, ədəbiyyatşünaslıq, tərcüməçilik, pedaqogika, dərslik tərtibi sahəsində çalışmaları Şaiqin vətəndaşlıq mövqeyinin, müəllif tendensiyasının meydana çıxmasını təmin edən fəaliyyət sahələridir.

Abdulla Şaiq yaradıcılığı maraqlı və uğurlu sintezlər üzərində qurulmuşdur. Burada millíliklə bəşəriliyin, ənənə ilə müasirliyin, şərqlə qərb sivilizasiyasının, romantizmlə realizmin, şeirlə nəsrin mükəmməl sintezinin şahidi oluruq. Abdulla Şaiq həm təpədən dırnağa türklükdən, turançılıqdan yoğrulmuş bir türk mütəfəkkiri, həm də qlobal, bəşəri ideyaların carçısıdır. O, milli-mənəvi dəyərlərin yorulmaz təbliğatçısı, həm də müasirliyin novatorluğun tərəfdarıdır.

Azərbaycan ədəbiyyatının "Xalq ədəbiyyatı", "İxtilat dövrü ədəbiyyatı" və "Təqlid dövrü ədəbiyyatı" kimi ədəbi mərhələlərdən keçib gəldiyi fikrini irəli sürən Abdulla Şaiq ədəbiyyatımızı milli köklərindən ayırmır, bu qırılmaz tellərin Azərbaycan xalqı və ədəbiyyatı üçün nə qədər əhəmiyyətli olduğunu dərk edirdi. Halbuki bu illərdə məlum qüvvələr Azərbaycan xalqını öz soy-kökündən ayırmağa çalışır, onu milli mədəniyyəti, folkloru olmayan xalq kimi qələmə verirdi. Xoşbəxtlikdən xalqımızı zəngin keçmiş mədəniyyətindən, folk-

*(Ardı 6-cı səh.)*

# "Yad et məni, şairanə yad et..."

*(Əvvəli 2-ci səh.)*

lorundan təcrid etmək istəyənlər olduğu kimi, bu mədəniyyəti təbliğ edən, toplayıb çap etdirən və yenidən xalqın ixtiyarına verən alimlər də var idi.

...Milli klassik irsə münasibətdə Abdulla Şaiq yaradıcılığı 20-ci illər ədəbiyyatşünaslığına müəyyən mənada müxalifət təşkil edir. O, proletar mədəniyyətinin, sosioloji tənqidin birtərəfli yanaşdığı M.Füzulinin, M.P.Vaqifin, Ə.Hüseynzadənin, H.Cavidin, türk sənətkarları Y.İmrənin, Nəfinin, T.Fikrətin və başqalarının bioqrafiyasını və əsərlərindən nümunələri nəinki tərtib etdiyi dərsliklərinə daxil edir, həm də belə sənətkarların yaradıcılığını tədqiqata cəlb edirdi. Dövrün, mühitin özündən qaynaqlanan subyektivlikləri nəzərə almasaq, Abdulla Şaiqin çağdaş ədəbiyyatşünaslığın elmi nəticələri ilə həmahəng səslənən qənaətləri bu gün üçün də aktualdır, maraqlıdır...

XX əsrin əvvəllərində professional mərhələyə qədəm qoyan ədəbi tənqid çağdaş ədəbiyyatı cilalamağa deyil, daha çox ideoloji funksiya yerinə yetirməyə təhkim olunmuşdu. Məlumdur ki, tənqid həmişə hakim ideologiyanı əks etdirmişdir. Həmin dövrdə bu tendensiya özünü ifrat dərəcədə göstərirdi. Təhlil olunan əsər sənətkarlıq baxımından deyil, sosioloji mövqedən, realizmin prinsiplərinə cavab verib-verməməsindən, ideoloji mahiyyətindən asılı olaraq qiymətləndirilirdi. Tənqidçilərin demək olar ki, hamısı tənqidi "ədəbiyyatın ələyi", "ayineyi-millət", "zəmanənin ruhu" adlandırsalar da, ədəbiyyatın dəyərləndirilməsində əsas meyar siyasi mənsubiyyət faktoru idi. Belə bir ictimai-siyasi şəraitdə tənqidin forma və məzmun axtarışları, klassik və çağdaş irsin dəyərləndirilməsi kimi aparıcı mövzularına münasibət bildirən Abdulla Şaiq proletar mədəniyyətinin, inqilabi estetikanın təbliğatçısına çevrilmədi, elmi obyektivliyi hər şeydən üstün tutdu.

Biz Abdulla Şaiqi mərhum akademik K.Talıbzadənin şərti bölgüsünə müvafiq olaraq, romantik tənqidin nümayəndəsi adlandırsaq da, o özünü nə romantik tənqidi təmsil edən "Füyuzat" ədəbi məktəbinə, nə də realist-demokratik tənqidi təmsil edən "Molla Nəsrəddin" ədəbi məktəbinə aid etmirdi. Hər iki ideya cəbhəsinə konkret münasibətini bildirən ədib xatirələrində yazır: "Molla Nəsrəddin" məcmuəsində C.Məmmədquluzadə və Ömər Faiq Məhəmməd Hadinin və Müznibin lisanına ciddi hücumlar yapır və kəskin məqalələri ilə dili təmizləməyə, sadələşdirməyə çalışırdılar. Fəqət "Molla Nəsrəddin"in dili sadə və anlayışlı olmaqla bərabər, cümlə quruluşu cəhətindən rus və ərəb qramerinin müəyyən təsiri vardır. Hər iki tərəfdən nöqsanları açıq-açığına gördüyüm üçün iqtidar və istedadım daxilində heç bir təsirə qapılmadan əsərlərimi sadə, anlayışlı, həm də ədəbi bir dildə yazmağa çalışırdım".

Təbii ki, burada söhbət "Molla Nəsrəddin" və "Füyuzat" məcmuələrinin dilindən gedir. Lakin Abdulla Şaiqi romantik tənqidə bağlayan onun sənətə, ədəbiyyata yanaşma tərzi, ədəbi-estetik meyarları və ideyalarıdır. O, tarixdə yaşayacaq ölməz sənət əsərlərindən danışaraq belə əsərlərin timsalında Əbdülhəq Hamid, Hüseyn Cavid kimi romantiklərin adını çəkir və bədii əsərin təsir qüvvəsini əsl romantik kimi şərh edirdi.

Taleyin qəribə təsadüflərindəndir ki, Abdulla Şaiqin atası Axund Mustafa Əli bəy Hüseynzadənin babası, Zaqafqaziya şeyxülislamı Şeyx Əhməd Səlyaninin müavini olmuşdur. Bu mənəvi-fikri yaxınlıq onların xələflərinə də sirayət etmişdir. Sonradan romantizmin ideoloquna və romantik ədəbiyyatın görkəmli nümayəndəsinə çevrilmiş bu iki şəxsiyyətin mənsub olduğu ədəbi cərəyanın prinsiplərindən doğan tələblər altında onların bədii ədəbiyyata analoji tərzinin şahidi oluruq.

...Bir tədqiqatçı kimi Abdulla Şaiqin diqqətini əsərlərdə ilk növbədə dünya kədəri cəlb edirdi. O, həyatın bütün çətinliklərini dadmış, iztirab adlı bir məktəb keçmiş insanı kamil insan adlandırır. "Həyatda müztərib olmayan, onun acılıqlarını dadmayan, mübarizədəki zövqdən binəsib olan insanlar nə həyatın zövqünü, nə də onun qayəsini anlamış olurlar. İztirab insanları islah edir, çalışmağa, çarpışmağa sövq edir" - deyən Abdulla Şaiqin M.Füzuli, M.Ə.Sabir, H.Cavid yaradıcılığına böyük sevgi və marağının səbəbi ictimai kədər idi...

Elmi sessiyada "Abdulla Şaiqin mənzil muzeyi" mövzusunda məruzə ilə çıxış edən sənətşünaslıq üzrə fəlsəfə doktoru Ülkər Talıbzadə vurğuladı ki, Abdulla Şaiqin ev muzeyi ədəbi profilli bir muzeyidir. "Biz Nizami adına Ədəbiyyat muzeyilə, eləcə də folklorşünas alimlərdən Məhərrəm Qasımlı və Vəli Osmanlı ilə sıx əlaqə saxlayırıq. Abdulla Şaiq xoşbəxt sənətkardır ki, hələ sağlığında istər dövlət, istərsə də xalq tərəfindən sevilib, hələ qırx yaşında ikən yubileyi geniş şəkildə qeyd olunub, fəaliyyətinin 20 illiyi münasibətilə müəllim yoldaşlarının və tələbələrinin ürək sözlərindən ibarət kitab nəşr edilib. O kitabın nüsxəsi muzeydə qorunur. Ədibin 75, 100, 110, 120 illiyi də dövlət səviyyəsində layiqincə qeyd olunub. Onun 130 illiyi Mədəniyyət və Turizm Nazirliyinin xüsusi qərarı ilə keçirildi, nazirliyin dəstəyi ilə "Abdulla Şaiqin mənzil muzeyi" adlı kitab nəşr olundu. Bu muzey 1990-cı ildə yaradılıb. Lakin müəyyən səbəblər üzündən ekspozisiyaların nümayişi düz on il gecikdi. Muzeyin təşkili Kamal Talıbzadənin təşəbbüsü və seçimi əsasında oldu. Atam istəyirdi ki, bu muzey ədibin şəxsi əşyalarından daha çox yaradıcılığını özündə əks etdirsin. Kamal müəllim bu muzeyi elmi əsaslar prinsipilə qurdu. Məsləhət bildi ki, mən də bu muzeydə işləyim. Dedi ki, qızım mənim işimi ailədən kimsə davam etdirməlidi. Elə də oldu. Biz öncə Nizami adına Ədəbiyyat İnstitutunun fərdi iş planları əsasında öz işimizi qurduq. Muzeyin qaydaya düşməsində elmi işçi Əbdül Əzizovun xüsusi xidməti olub. Yenə də deyirəm, atam muzeydə Abdulla Şaiqin daha çox şəxsiyyətini və yaradıcılığını ifadə edən dəyərlərin önə çıxmasını istəyirdi. Biz bu istiqamətdə işlədik. İndi muzeydə yeddi minə qədər eksponat var..."

Məruzələr ətrafında filologiya elmləri doktoru, professor Qəzənfər Paşayev, folklorşüas alim Vəli Osmanlı, AMEA-nın əməkdaşları Zəhra Abdullayeva, Ülkər Köçərli və başqaları danışaraq A.Şaiqin ədəbiyyat tariximizdəki müstəsna yeri olmasından söz açdılar.

Professor Məhərrəm Qasımlı dedi ki, mən vaxtilə rəhmətlik Kamal Talıbzadə ilə Şaiq əfəndi haqqında tez-tez söhbət edərdim. O, deyərdi ki, atam zəngin folklor boxçasıdır. Kamal müəllim Abdulla Şaiq haqqında böyük duyğularla danışardı. Abdulla Şaiq folklor nümunələrimizin özü qədər gözəl şeirlər yaradıb - istər dil, istərsə də poetik göstəricilərinə qədər. O, bütün ruhu, düşüncəsi ilə folklora bağlı bir sənətkar idi. "Şaiq" sözü ilə "xalq müəllimi" anlayışının arasında çox böyük bağlılıq var və Şaiq əfəndi öz mənalı ömrü boyu bu vəhdəti ləyaqətlə qorumuşdu".

Elmi sessiyanı akademik Bəkir Nəbiyev yekunlaşdırdı.

*Hazırladı:* **S.Hüseynoğlu**